***Bugünlərdə Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında qeyd olunduğu kimi, hövzəətrafı ölkələrin əməkdaşlığının müqavilə-hüquqi bazası getdikcə möhkəmlənir. Təhlükəsizlik, hidrometeorologiya, nəqliyyat, suyun bioloji ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahələrində, habelə qarşılıqlı maraq doğuran başqa sahələrdə ötən illərdə müvafiq sazişlər imzalanıb və qüvvəyə minib.***

# Azərbaycan Xəzərətrafı regionun əsas logistika mərkəzidir

Xəzər dənizinin hüquqi statusuna dair 2018-ci ildə Aktauda imzalanmış konvensiya bu sənədlər içərisində tarixi əhəmiyyət kəsb edir. Konvensiyanın tezliklə qüvvəyə minməsi dövlətlərimizin bundan sonrakı hərtərəfli qarşılıqlı fəaliyyətinə və əməkdaşlığına yönəlmiş daha təsirli tədbirlər görülməsi üçün möhkəm hüquqi zəmin yaradacaq. Xəzəryanı ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətləri, o cümlədən BMT, ATƏT, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amilidir. Artıq Xəzər dənizi regionun xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir.

Xəzər dənizindəki nəqliyyat şəbəkəsi də daxil olmaqla Azərbaycan Avrasiyanın mühüm logistika mərkəzlərindən birinə çevrilmişdir. Ölkəmiz Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında da mərkəzi həlqə rolunu oynayır. Ölkəmiz Transxəzər beynəlxalq nəqliyyat marşrutunun səmərəli fəaliyyətinə də önəmli töhfəsini verir. Bu marşrut Xəzəryanı dövlətlərin nəqliyyat potensialından maksimum dərəcədə istifadə etməyə imkan verəcək və logistika infrastrukturunun inkişafına dair yeni beynəlxalq layihələrin həyata keçirilməsinə şərait yaradacaq.

Ötən əsrin 90-cı illərindən Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində qapanmış Zəngəzur dəhlizinin açılması da artıq reallığa çevrilir. Azərbaycan Vətən müharibəsində qazandığı qələbə ilə ərazi bütövlüyünü bərpa edəndən sonra Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, kommunikasiyaların bərpası, o cümlədən beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzrə genişmiqyaslı işlər



görməyə başlayıb. Ölkəmizin işğaldan azad etdiyi ərazilərə nəzarəti bərpa etməsi, 30 illik münaqişəyə son qoyması regionda yeni reallıqlar yaradıb. Dünyanın inkişaf etmiş güclü dövlətləri və beynəlxalq təşkilatlar, siyasi mərkəzlər bu reallığı qəbul edərək ölkəmizlə əməkdaşlıq üçün təşəbbüslər irəli sürürlər.

Azərbaycan beynəlxalq hüquq çərçivəsində öz haqqını bərpa edərək, bütün dünyaya güclü dövlət olduğunu göstərdi. Artıq Cənubi Qafqaz regionu dedikdə ağıla ilk gələn Azərbaycandır. Azərbaycan, sözün əsl mənasında, regionun güclü dövləti, başqa sözlə desək, yeni güc mərkəzidir. Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və uzaqgörən, eyni zamanda, qətiyyətli siyasət nəticəsində Azərbaycan dövləti bu tarixi uğurlara nail olub. Ölkəmiz üstün coğrafi mövqeyi, gerçəkləşdirdiyi önəmli regional və beynəlxalq layihələrlə Xəzərətrafı ölkələr arasında aparıcı nəqliyyat və logistika mərkəzinə çevrilmişdir.

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məcisin Səhiyyə komitəsinin sədri, akademik***